# SUMQAYIT HADİSƏLƏRİ
# işğalçılıq planının tərkib hissəsi



Sumqayıt hadisələrinin baş verməsinin üzərindən 31 ildən çox vaxt keçməsinə baxmayaraq, ötən dövr ərzində olanlar sözügedən hadisələrin kimlərə xidmət etməsi baxımından aktuallığını itirmir. Təsadüfi deyil ki, Ermənistan rəhbərliyi bu gün də həmin hadisələrdən bəhs edərək ötən müddət ərzində həyata keçirdikləri işğalçılıq siyasətinə haqq qazandırmağa cəhd edir.

Prezident İlham Əliyev isə Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdə bu məsələyə bir daha aydınlıq gətirərək məsələnin əsl mahiyyətini bir daha ortaya qoyub: “1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi”.

Ölkə başçısının sözlərinə görə, plan ondan ibarət idi ki, ulu öndər Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar: “Yəni plan onu vəzifədən uzaqlaşdırmaq və bu məqsədlə buradakı yerli satqınlar, xainlər vasitəsilə donos göndərmək, erməni millətçiləri tərəfindən məsələ qaldırmaq idi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz. Beləliklə, iğtişaş törətmək, hansı ki, Sumqayıtda baş verdi və ondan sonra məsələ qaldırmaq ki, ermənilər Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya bilmirlər. Buna görə də Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməlidir. Bax, plan bundan ibarət idi və əfsuslar olsun ki, bu plan həyata keçdi”.

Burada digər maraqlı fakt isə həmin vaxt on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Eduard Qriqoryan uzun müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edildikdən az sonra, cəzasını qanunla Azərbaycan ərazisində çəkməli olduğu halda, hansısa “xidmət”lərinə görə cəzasını çəkmək üçün Ermənistana göndərilib və orada azadlığa buraxılıb.

Ümumilikdə, Sumqayıtda baş vermiş iğtişaşlar zamanı saxlanılmış erməni soyadı daşıyanların barəsində heç bir araşdırma aparılmayıb, onlar dərhal “zərərçəkən” tərəf kimi buraxılıb və bir çoxları məsuliyyətdən kənarda qalıb. İş üzrə təqsirləndirilən şəxs kimi cəlb edilmiş Eduard Qriqoryan isə onun tərəfindən cinsi zorakılığa məruz qalmış zərərçəkmiş erməni qızları Marina və Karina Mejlumyanlar, onların anası Roza Mejlumyan tərəfindən tanındığından onun cinayət məsuliyyətindən yayındırılması mümkün olmamışdı.

Göründüyü kimi, Dağlıq Qarabağ münaqişəsinin kökləri dərin və çoxşaxəlidir. Sumqayıt hadisələrinin törədilməsi də ermənilərin Azərbaycana qarşı zaman-zaman həyata keçirdikləri mənfur niyyətlərinin tərkib hissəsi olub. Nəticədə, uzun illər ərzində erməni tərəfi öz separatçı və işğalçı siyasətinə, Xocalı soyqırımına və Azərbaycan torpaqlarında törətdiyi digər cinayətlərə bəraət qazandırmaq üçün Sumqayıt hadisələrinə istinad edir. Ölkəmizin ərazisinin 20 faizini işğal etmiş və etnik təmizləmə siyasəti həyata keçirmiş Ermənistan, Sumqayıt hadisələrini Azərbaycanın təşkil etdiyi məqsədyönlü akt kimi təqdim edir. Bir sözlə, hələ 1988-ci ildən başlanmış bu təbliğat kampaniyası dünya ictimaiyyətinə azərbaycanlıların ermənilərə qarşı qəddarlığı, ermənilərin azərbaycanlılarla bir dövlət tərkibində birgə yaşamalarının mümkün olmaması ideyasının aşılanmasına yönəldilib.

Əslində Sumqayıt şəhərində törədilmiş kütləvi iğtişaşlarla bağlı 1988-1990-cı illərdə aparılmış istintaq və məhkəmə prosesləri nəticəsində həmin hadisələrə ədalətli hüquqi qiymət verilməməsi, onların əsl sifarişçiləri və təşkilatçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaması Ermənistanın bu sahədəki “fəaliyyət”inə şərait yaradıb. Bu işdə arada onların dünya ictimaiyyətini aldatmaqda “məharətli” olmaları da az rol oynamır. Lakin yavaş-yavaş da olsa, artıq dünya ictimaiyyətinə məlum olur ki, erməni millətinin ideologiyası faşist ideologiyasından ibarətdir. Terror, qan tökmək, insanları qətlə yetirmək, başqa millətlərə qarşı nifrət hissi oyatmaq onların milli ideologiyasının əsasını təşkil edir. Bu baxımdan Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasından bəhs edərkən burada Sumqayıt hadisələrinin əsl mahiyyətinin geniş ictimaiyyətə çatdırılması da əsas şərtdir.

**Ceyhun Piriyev,**
***“İki sahil”***

İki sahil.- 2019.-14 dekabr.- S.19